Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Göylər, Allahın Gözəl Evi

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Lazarus; Alastair Paterson

Uyğunlaşdıran: Sarah S.

Tərcümə edən: Günay  Karaağac

Təqdim edən: Bible for Children
www.M1914.org

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

İsa yer üzərində yaşayanda, O, Öz şagirdlərinə Göylər haqqında danışırdı.  O, oranı "Mənim Atamın Evi" adlandırırdı və deyirdi ki,



orada çoxlu məskənlər var.

Məskən böyük, gözəl evdir. Göylər yer üzərindəki hər hansı evdən çox böyük və gözəldir.



İsa dedi: “Sizə yer hazırlamaq üçün gedirəm. Əgər gedib və sizin üçün yer hazırlayanda, sonra yenə gəlib sizi də Öz | yanıma aparacağam”.



İsa ölülər arasından diriləndən sonra Göylərə getdi. Onun şagirdləri baxarkən, İsa göyə aparıldı və buludlarda qeyb oldu.



O vaxtdan bəri məsihçilər İsanın geri qayıdacağını və onları da Özü ilə oraya götürəcəyi vədi xatırlayırlar. İsa dedi ki, Onun qayıdışı qəflətən, heç gözlənilməyən vaxtda olacaqdır.



Bəs Onun gəlişindən əvvəl ölən məsihçilər necə olacaq? Müqəddəs Kitab deyir ki, onlar birbaşa İsanın yanına gedirlər. Bədəndən uzaq olmaq Rəbbin hüzurunda olmaqdır.



Müqəddəs Kitabdakı son kitab, Vəhy Kitabı bizə Göyün necə gözəl olduğunu deyir.



Ən gözəl şey isə budur ki, çox xüsusi şəkildə, Göylər Allahın Evidir. Allah hər yerdədir, lakin Onun taxtı Göylərdədir.



Mələklər və digər səmavi varlıqlar Göylərdə Allaha səcdə edirlər. Ölmüş və Göylərə getmiş olan bütün Allahın övladları da həmçinin. Onlar Allaha xüsusi mədh mahnıları oxuyurlar.



Budur onların oxuduğu mahnının sözlərindən bir neçəsi: SƏN LAYİQSƏN, ÇÜNKİ SƏN HƏR TAYFADAN, DİLDƏN, XALQDAN VƏ ...



... MİLLƏTDƏN OLANLARI ÖZ QANIN BAHASINA SATIN ALDIN. ONLARI ALLAHIMIZLA BİRGƏ PADŞAHLIĞA VƏ KAHİNLİYƏ ŞƏRİK ETDİN. (Vəhy 5:9)



Müqəddəs Kitabın ən sonuncu səhifələri Göyləri “Yeni Yerusəlim” kimi təsvir edir. Ora uca divarlı, çox, çox böyük yerdir.



Divar büllur yəşəm daşı kimi parıldayır;
Daş-qaşlar və qiymətli daşlar gözəl rənglərlə parıldayaraq, ...



... divarı örtüb; Şəhər darvazalarının hər biri böyük mirvaridən düzəldilib!



O böyük mirvarili darvazalar heç vaxt bağlanmır.  Gəlin içəri girək və ətrafa baxaq...AH!



Göylərin içərisi hətta daha da gözəldi.  Şəhər şüşə kimi şəffaf olan xalis qızıldandır.  Hətta küçələri də qızıldandır.



Gözəl, büllur kimi axan həyat suyu çayı Allahın taxtından axır.  Çayın hər iki tayında ilk dəfə Eden Bağında olan həyat ağacı var.  Bu ağac çox xüsusidir.



Bu ağac on iki cür meyvə gətirir, hər ay bir cür meyvə.  Və həyat ağacının yarpaqları millətlərə şəfa vermək üçündür.



Göylərə nə günəş, nə də ay işığı lazımdır. Allahın Öz izzəti oranı gözəl işıqla doldurur.  Orada heç vaxt qaranlıq olmur.



Hətta heyvanlar da Göylərdə fərqlidirlər. Onların hamısı əhliləşdirilmiş və mehribandırlar.  Qurd və quzular birlikdə otlaqdadırlar.  Hətta qüdrətli şirlər də buğa kimi saman yeyirlər.



“Müqəddəs dağımın heç bir yerində heç kimə zərər dəyməyəcək, heç bir kəs o birisini məhv etməyəcək”.  Rəbb belə deyir.



Biz ətrafa baxanda görürük ki, Göylərdə olmayan bəzi şeylər var. Heç bir qəzəbli sözlər deyilmir. Heç kim dalaşmır, yaxud xudbinlik etmir.



Qapılarda qıfillar yoxdur, çünki Göylərdə oğrular yoxdur. Orada yalançılar, qatillər, cadugərlər, yaxud da digər pis adamlar yoxdur. Göylərdə heç bir növ günah yoxdur.





Allahla Göylərdə artıq göz yaşları yoxdur. Bəzən Allahın övladları bu həyatdakı böyük itkilərə görə ağlayırlar. Göylərdə Allah bütün göz yaşlarını siləcək.

Göylərdə ölüm də yoxdur. Allahın övladları əbədiyyən Rəblə olacaqlar. Orada artıq kədər, ...



... ağlaşma, ağrı olmayacaq; Heç bir xəstəlik, ayrılıq, yaslar olmayacaq; Göylərdə hər bir kəs Allahla əbədiyyən xoşbəxt olacaq.



Ən gözəli isə, Göylər İsa Məsihə öz Xilaskarları kimi iman etmiş və öz Rəbləri kimi Ona itaət etmiş oğlanlar və qızlar (və böyüklər üçün də) üçündür.



Göylərdə Quzunun Həyat Kitabı adlanan bir kitab var. Bu kitab insan adları ilə doludur. Heç bilirsən orada kimlərin adları yazılıb? İsaya iman edən bütün insanların adları. Sənin adın oradadırmı?



# Müqəddəs Kitabın Göylər haqqında olan son sözləri gözəl dəvətdir.



"Ruh da, gəlin də deyir: 'Gəl!' Qoy eşidən də desin: 'Gəl!' Susayan qoy gəlsin, arzu edən həyat suyunu müftə götürsün".



# Göylər, Allahın Gözəl Evi

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Yəhya 14, 2 Korinflilərə 5,
Vəhy 4, 21, 22

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130


Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**